| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 25.12.2001 |
| QEYDİYYAT NÖMRƏSİ | 201 |
| ADI | Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasının təsdiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2001, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 811) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 25.12.2001 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 100.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq olunmasını təmin edən əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 2 mart tarixli 446 nömrəli Fərmanının 2-ci abzasının 1-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 25 dekabr 2001-ci il
201

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2001-ci il 25 dekabr tarixli 201 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması**

**QAYDASI**

**I. Ümumi müddəalar**

1.1. Təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətləri ilə bağlı müraciətlərinə baxılması Qaydası (bundan sonra – Qayda) "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanununa, "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası qanununun tətbiq olunmasını təmin edən əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 2 mart tarixli 446 nömrəli Fərmanına və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qayda təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətləri ilə bağlı Azərbaycan Respublikasının *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyinə (bundan sonra *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyi) razılıq almaq üçün müraciətini, bununla əlaqədar lazımi sənəd və məlumatın təqdim olunmasını, *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyində müraciətə baxılması ardıcıllığını müəyyən edir.[1]

1.3. Qaydanın tətbiq edilməsində məqsəd istehlakçıların mənafeyinə xələl gətirə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hərəkətlərin qarşısının alınmasını, təbii inhisar subyektləri ilə istehlakçıların mənafelərinin tarazlaşdırılmasını təmin etməkdir.

**II. Təbii inhisar subyektlərinin *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyindən razılıq almaqla həyata keçirilən hərəkətləri**

2.1. Təbii inhisar subyektləri aşağıdakı hərəkətlərə görə *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyinin razılığını almalıdırlar:

2.1.1. barəsində "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət tənzimlənməsi tətbiq edilməyən əmtəənin istehsalı (satışı) üçün əsas vəsaitlərə mülkiyyət və ya istifadə hüququnun əldə edilməsi;

2.1.2. əsas vəsaitlərin lizinq əsasında istehlakçılara verilməsi;

2.1.3. təbii inhisar subyektləri tərəfindən "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənməyən fəaliyyət sahələrinə investisiyaların ayrılması.

2.2. Barəsində "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət tənzimlənməsi tətbiq edilən əmtəənin istehsalı (satışı) üçün əsas vəsaitlərin satışı, icarəyə verilməsi və ya digər hərəkətlər qüvvədə olan qanunvericiliyə müvafiq olaraq həyata keçirilir.

**III. Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyinə təqdim olunan materiallar**

3.1. Təbii inhisar subyektləri bu Qaydanın 2-ci bölməsində göstərilən hərəkətlərlə bağlı razılıq almaq üçün *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyinə aşağıdakı sənədləri təqdim etməlidirlər:

3.1.1. *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyinin adına müraciət məktubu;

3.1.2. tənzimləmə tətbiq edilməyən əmtəələrin istehsalı (satışı) ilə əlaqədar təsərrüfat müqavilələri;

3.1.3. əsas vəsaitlərə mülkiyyət və ya istifadə hüququnun əldə edilməsi ilə əlaqədar təsərrüfat müqavilələri;

3.1.4. əsas vəsaitlərin satışı, icarəyə verilməsi nəticəsində mülkiyyət və ya istifadə hüququnun digər təsərrüfat subyektlərinə keçməsi ilə əlaqədar təsərrüfat müqavilələri;

3.1.5. dövlət mülkiyyətində olan əmlakın icarə müqavilələri;

3.1.6. investisiya layihələri.

## IV. Təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətləri ilə bağlı müraciətlərinə *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyində baxılması[2]

4.1. Daxil olmuş sənədlər *iqtisadiyyat ~~və sənaye~~* naziri (o olmadıqda nazirin müavini) tərəfindən *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə (bundan sonra - Xidmət) göndərilir.[3]

4.2. Xidmətində razılıq almaq haqqında daxil olmuş sənədlərə baxılan zaman aşağıdakı məsələlər aydınlaşdırılır:

4.2.1. son iki il ərzində müəssisəyə məxsus əsas vəsaitlərin, nizamnamə kapitalının hərəkəti;

4.2.2. mütləq xidmət edilməli olan istehlakçı qrupların tələbatının tam ödənilməsi mümkün olmadıqda, təminatın minimum həddinin müəyyən edilməsi üçün zəruri olan mövcud istehsal güclərinin və istehsal sahələrinin vəziyyəti;

4.2.3. təbii inhisar qanunvericiliyi ilə tənzimlənən fəaliyyət sahələri üçün nəzərdə tutulmuş investisiya layihələrinin əsaslandırılması;

4.2.4. təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətlərinin həyata keçirilməsinin həmin təsərrüfat subyekti tərəfindən istehsal olunan məhsulların (işlərin, xidmətlərin) qiymətlərinə təsiri.

4.3. Təbii inhisar subyektlərinin bu Qaydanın 2-ci bölməsində göstərilən hərəkətlərinə aşağıdakı hallarda razılıq verilmir:

4.3.1. müraciətdə göstərilən hərəkətlər istehsalçıların mənafelərinə xələl gətirirsə;

4.3.2. müraciətdə göstərilən hərəkətlər antiinhisar və digər qanunvericilik normaları ilə ziddiyyət təşkil edirsə;

4.3.3. müraciət edən tərəfdən zəruri olan sənədlər təqdim edilməyibsə;

4.3.4. həmin sənədlərdə göstərilən məlumat həqiqətə uyğun gəlmirsə.

4.4. Xidmət təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətlər ilə bağlı müraciətlərinə razılıq verib-verməmək barəsində 10 gün müddətində təklif hazırlayıb iqtisadiyyat *~~və sənaye~~* nazirinə (nazir müavininə) təqdim etməlidir.[4]

4.5. Xidmət müraciət edəndən məsələni araşdırmaq üçün əlavə sənədlərin təqdim edilməsini tələb etmək və yalnız bu halda müraciətə baxılma müddətini uzatmaq hüququna malikdir. Belə bir tələb 10 gün müddətində müraciət edənə göndərilməlidir.

4.6. Xidmət bütün hallarda müraciətin daxil olduğu və ya əlavə sənədlərin təqdim edildiyi vaxtdan 15 gündən gec olmamaq şərti ilə müraciət edənə qəbul olunmuş qərar barədə məlumat verməlidir (1 və 2 nömrəli əlavələr).

## V. Yekun müddəalar

5.1. Təbii inhisar subyektlərinin müvafiq razılıq olmadan bu Qaydanın 2-ci bölməsində göstərilən hərəkətləri həyata keçirməsi yolverilməzdir.

5.2. Təbii inhisar subyektlərinin müvafiq razılıq olmadan bu Qaydanın 2-ci bölməsində göstərilən hərəkətləri həyata keçirməsi sübut olunduqda, Xidmət həmin hərəkətlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün qanunvericiliyə uyğun olaraq tədbirlər görür.

5.3. Xidmət müraciətdə göstərilən hərəkətlərə razılıq verməkdən imtina etdikdə və ya ona baxılma müddəti bitdikdən sonra heç bir cavab vermədikdə müraciət edən inzibati qaydada və ya məhkəməyə şikayət edə bilər.[5]

Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasına

1 NÖMRƏLİ ƏLAVƏ[6]

(Xidmətin blankında)

________________________________________

(müraciət edən təbii inhisar subyektinin adı və vəzifəli şəxsin adı, soyadı)

________________________________________

(təbii inhisar subyektinin adı)

________________________________________

(müraciətin məzmunu)

ilə əlaqədar müraciətinə Azərbaycan Respublikasının *İqtisadiyyat* ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətində baxılmışdır.

"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri baxımından Azərbaycan Respublikasının *İqtisadiyyat* ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti

________________________________________

________________________________________

(təbii inhisar subyektinin adı)

tərəfindən ________________________________________

________________________________________ etiraz etmir.

(hərəkətlərin məzmunu)

Azərbaycan Respublikasının *İqtisadiyyat* ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəisi

(imza)

Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasına

2 NÖMRƏLİ ƏLAVƏ [7]

(Xidmətin blankında)

________________________________________

(müraciət edən təbii inhisar subyektinin adı və vəzifəli şəxsin adı, soyadı)

________________________________________

(təbii inhisar subyektinin adı)

________________________________________

(müraciətin məzmunu)

ilə əlaqədar müraciətinə Azərbaycan Respublikasının *İqtisadiyyat* ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətində baxılmışdır.

"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri baxımından Azərbaycan Respublikasının *İqtisadiyyat* ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti

________________________________________

________________________________________

(təbii inhisar subyektinin adı)

tərəfindən ________________________________________

________________________________________

(hərəkətlərin məzmunu)

________________________________________ etiraz edir.

(etirazın səbəbi)

Azərbaycan Respublikasının *İqtisadiyyat* ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəisi

(imza)

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 22 may 2006-cı il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 5, maddə 472)**

2. 5 oktyabr 2009-cu il tarixli 163 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 852**)

3. 14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 fevral 2014-cü il, 37 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 02, maddə 201**)

4. 5 iyun 2014-cü il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 iyun 2014-cü il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 736**)

5. 13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 may 2016-cı il, 108 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 955** )

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 fevral 2014-cü il, 37 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 02, maddə 201**) ilə "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın II, III, IV hissələrdə, 1.2-ci (hər üç halda), 2.1-ci, 3.1-ci və 4.1-ci bəndlərdə, 3.1.1-ci yarımbənddə "İqtisadi İnkişaf" sözləri "İqtisadiyyat və Sənaye" sözləri ilə, 4.1-ci bənddə isə "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye**" sözləri ilə əvəz edilmişdir.

13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 may 2016-cı il, 108 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 955** ) ilə "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın II, III, IV hissələrdən, 1.2-ci (hər üç halda), 2.1-ci, 3.1-ci və 4.1-ci bəndlərdən, 3.1.1-ci yarımbənddən "**və Sənaye**" sözləri, 4.1-ci və 4.4-cü bəndlərdən isə "**və sənaye**" sözləri çıxarılmışdır.

[2] 5 oktyabr 2009-cu il tarixli 163 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 852**) ilə 4.2-ci, 4.4-cü, 4.5-ci, 4.6-cı, 5.2-ci və 5.3-cü bəndlərində ismin müvafiq hallarında **"Antiinhisar Siyasəti Departamenti"** sözləri ismin müvafiq hallarında **"Xidmət"** sözü ilə əvəz edilmişdir.

[3] 5 oktyabr 2009-cu il tarixli 163 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 852**) ilə 4.1-ci bəndində **"İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Siyasəti Departamentinə (bundan sonra - Antiinhisar Siyasəti Departamenti)"** sözləri **"İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə (bundan sonra - Xidmət)"** sözləri ilə əvəz edilmişdir.

[4] 5 iyun 2014-cü il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 iyun 2014-cü il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 736**) ilə "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın 4.4-cü bəndində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye**" sözləri ilə əvəz edilmişdir.

[5] 22 may 2006-cı il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 5, maddə 472**) ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 201 nömrəli qərarı ilə təsdiq edilmiş "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın 5.3-cü bəndində "müraciət edən" sözlərindən sonra "inzibati qaydada və ya" sözləri əlavə edilmişdir.

[6] 5 oktyabr 2009-cu il tarixli 163 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 852**) ilə 1 və 2 nömrəli əlavələrində ismin müvafiq hallarında **"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Siyasəti Departamenti"** sözləri ismin müvafiq hallarında **"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti"** sözləri ilə, **"Departamentin"** sözü **"Xidmətin"** sözü ilə, **"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Siyasəti Departamentinin direktoru"** sözləri **"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəisi"** sözləri ilə əvəz edilmişdir.

14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 fevral 2014-cü il, 37 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 02, maddə 201**) ilə "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın 1 nömrəli əlavədə (hər üç halda) "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 may 2016-cı il, 108 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 955** ) ilə "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın 1 nömrəli əlavədən (hər üç halda) "**və Sənaye**" sözləri çıxarılmışdır.

[7] 14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 fevral 2014-cü il, 37 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 02, maddə 201**) ilə "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın 2 nömrəli əlavədə (hər üç halda) "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 may 2016-cı il, 108 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 955** ) ilə "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın 2 nömrəli əlavədən (hər üç halda) "**və Sənaye**" sözləri çıxarılmışdır.